# Böyük türk alimi İsmayıl Hikmətin "Azərbaycan ədəbiyyatı tarixi" kitabı yenidən nəşr olunub




İki cilddən ibarət olan kitab ilk dəfə 1928-ci ildə Bakıda "Azərnəşr"də çap olunub. Kitabda "İslamiyyətin zühurundan miladın on səkkizinci əsrinə qədər"ki zamanın ədəbiyyatının tədqiqi nəzərdə tutulub. İsmayıl Hikmət nəzərdə tutduğu zaman kəsiyini ancaq anadilli ədəbiyyat əsasında araşdırmağı planlaşdırıb. Kitab türkçülük konsepsiyası ilə yazıldığı üçün nəşrindən keçən 100 ilə yaxın müddət ərzində ədəbi-elmi mühitdə yayılmasına, ədəbiyyat tarixçiliyimizdə ənənəsinin formalaşmasına imkan verilməyib.

Yeni nəşr Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Şurasının 14 sentyabr 2022-ci il tarixli qərarı ilə (protokol №1) çap olunub.

Əsər transliterasiya edilərkən müəllifin üslubuna toxunulmamış, mətn olduğu kimi saxlanmışdır. Kitabda İ.Hikmətin şəkli, tərcümeyi-halı, hər cildin üz qabığının şəkli, əsərin yeni nəşri fikrinin necə yaranması haqqında ideya müəllifinin "Hər şey Nəsimidən başladı..." başlıqlı qeydləri, İ.Hikmətin "Azərbaycan ədəbiyyatı tarixi" və ədəbiyyat tarixçiliyimizin bəzi metodoloji problemləri" adlı geniş müqəddimə, hər cild üçün ayrı "İzah və qeydlər" də yer almışdır.

Kitabın ideya müəllifi filologiya elmləri doktoru, professor, ADPU-nun Beynəlxalq Əlaqələr üzrə prorektoru, Əməkdar müəllim Mahirə Hüseynovadır.

Kitabı filologiya elmləri doktoru, ADPU-nun professoru, Əməkdar müəllim Təyyar Salamoğlu və filologiya üzrə fəlsəfə doktoru, dosent, ADPU-nun Cəlilabad filialında kafedra müdiri işləyən Yədulla Dadaşlı transliterasiya və tərtib etmişdir. Müqəddimənin, "İzah və qeydlər"in müəllifləri tərtibçilərdir.

Kitabın elmi redaktoru filologiya elmləri doktoru, ADPU-nun professoru, Əməkdar müəllim Yaqub Babayevdir.

Kitab "İlğım ədviyyatları"nın sponsorluğu ilə 2022-ci ildə "Elm və təhsil" nəşriyyatında çap olunmuşdur.